**Bu iş Azərbaycan Elm Fondunun maliyyə dəstəyi ilə yerinə yetirilmişdir - Qrant № AEF-MCG-2022-1 (42)-12/12/5-M-12**

**Könül Səmədova**
**f/e/d., dosent, ADPU-nun Müasir Azərbaycan dili kafedrasının müdiri**
**samedovakonul74@mail.ru**
**Orcid İD: 0000-0003-4061-9775**

# DIL TƏLIMININ MODIFIKASIYA MƏRHƏLƏSI HAQQINDA

**Xülasə:** Texnoloji Pedaqoji Məzmun Biliyi adından da göründüyü kimi bir neçə bilik növünün, modelinin birləşməsi və yaxud texnologiya, məzmun və pedaqogikanın başa düşülməsi, effektiv tətbiq edilməsidir. Bu biliyin formalaşdırılmasında bir sıra modellər iştirak edir ki, onlardan biri də modifikasiyadır. Modifikasiya müəllimə imkan verir ki, onun tələbələri üzərində işlədiyi hər hansı tapşırığı yenidən, yaxud da paradiqmatik formaları ilə qursun. Məsələn, tələbələrdən onlayn mənbələrdən oxumağı tələb etmək yerinə müəllim onlara mənbələrin situasiyasını təqdim edir ki, onlar informasiyanı özləri əldə etsinlər. Bu halda tələbələr sadəcə informasiyanı öyrənib ötürmürlər, onlar müxtəlif mənbələrdən mövzuya aid məlumatlar əldə edirlər və bu məlumatların hansının onlara lazım olub-olmadığını analiz edib müəyyənləşdirirlər ki, məqalədə texnoloji bilik məzmunun bu modelindən, yaxud da dərsin bu mərhələsinin əsas xüsusiyyətlərindən bəhs olunur.

**Açar sözlər:** Texnoloji Pedaqoji Məzmun biliyi, modifikasiya, dərsin mərhələsi, kitablarla texnoloji mənbələrin uzlaşdırılması.

# ABOUT THE MODIFICATION STAGE OF LANGUAGE TRAINING

**Summary:** Technological Pedagogical Content Knowledge, as the name suggests, is a combination of several types of knowledge, models, or understanding and effective application of technology, content and pedagogy. A number of models are involved in the formation of this knowledge, one of which is modification. Modification allows the teacher to reconstruct or paradigmatize any task that his students are working on. For example, instead of asking students to read from online sources, the teacher presents them with a situation of sources so that they can find the information themselves. In this case, students don't just learn and transfer information, they get information about the topic from various sources and analyze and determine which of these information they need or not.

**Keywords:** Technological Pedagogical Content knowledge, modification, stage of the lesson, reconciliation of books and technological resources.

# О МОДИФИКАЦИОННОМ ЭТАПЕ ЯЗЫКОВОЙ ПОДГОТОВКИ

**Резюме:** Технологическое педагогическое содержание Знания, как следует из названия, представляют собой комбинацию нескольких типов знаний, моделей или понимания и эффективного применения технологий, содержания и педагогики. В формировании этих знаний участвует ряд моделей, одна из которых – модификация. Модификация позволяет учителю реконструировать или парадигматизировать любую задачу, над которой работают его ученики. Например, вместо того, чтобы просить учащихся читать онлайн-источники, учитель представляет им ситуацию с источниками, чтобы они могли сами найти информацию. В этом случае студенты не просто усваивают и передают информацию, они

получают информацию по теме из различных источников, анализируют и определяют, какая из этих сведений им нужна или нет.

**Ключевые слова:** Знание технологического педагогического содержания, модификация, этап урока, сверка книг и технологических ресурсов.

Pedaqoji kadr hazırlığının Avropa təhsil sistemində araşdırılması və beynəlxalq təcrübəyə əsaslanan yeni məzmunlu təhsilin Azərbaycanda pedaqoji yönümlü universitet və kolleclərin pedaqoji fakültələrində tətbiqi məsələsinin müəyyənləşdirilməsində dərsə tətbiq edilən modifikasiya modeli və yaxud da mərhələsindən yan keçmək olmaz, çünki bu model də dərsin keyfiyyət effektivliyini yüksəldən amillərdir. Tam orta və ali təhsil müəssisələrində modifikasiya modelinin tətbiqi təşəbbüsünü ilk dəfə dünyada R.Puentedura irəli sürmüş, özü onu təlimə tətbiq edərək maraqlı pedaqoji nəticələr əldə etmiş, dərsin modifikasiya mərhələsində təlim prosesində müəyyən dəyişikliklər etdiyini göstərmiş və bununla da öyrətmə sistemində səmərəli nəticələrin əldə olunduğunu göstərmişdir (1). Öyrənmədə modifikasiya vasitəsilə fundamental dəyişikliklərin baş verməsi, yerinə yetirilməsi ən səmərəli təlim üsullarındandır. Dərsin modifikasiya mərhələsində müəllim tələbələrə tapşırıqlar verir və həmin tapşırıqların məzmununa uyğun mənbələr də təqdim edir ki, onlar bu mənbələr əsasında müstəqil çalışa bilsinlər. Məsələn, müəllim "sintaqm" mövzusuna uyğun F.Veysəlovun və F.Aslanovun, K.Abdullanın, Ə.Abdullayevin dərslik və vəsaitlərinin adlarını təqdim edir, mövzu haqqında öyrənməyi tövsiyyə edir və onları yeri gəldikcə tezisləşdirməyi də tapşırır. Röya adlı tələbə F.Veysəlovun, K.Abdullanın, Ə.Abdullayevin kitabları əsasında tezisləşdirmişdir ki, sintaqm – sözlərin fonetik və qrammatik bütöv kimi gerçəkliyin obyektiv inikası olan semantik parçaya bölünməsindən alınan vahidə deyilir. Məs: /Qoca/atlı Azərə yaxınlaşıb/nəsə dedi//. Qoca atlı/Azərə yaxınlaşıb/nəsə dedi//. Həmin tələbə eyni zamanda "sintaqmatika" mövzusunu qısaca olaraq belə tezisləşdirmişdir: "Sintaqmatika – 1)struktur dilçilikdə dil sisteminin müxtəlif səviyyəli vahidlərinin arasındakı əlaqələrin məzmunu; 2)sintaqmatik səviyyədə dil vahidlərinin düz xətt boyunca düzülməsi qaydaları. Məs: Azərbaycan dilində / O (təkdə) kitab (qeyri-müəyyən təsirlik hal) yazır (təkdə).

Onlayn kitablardan oxumağı tələb etmək yerinə müəllim onlara mənbələrin adlarını təqdim edir. Bu yolla əldə edilən biliklər təlim fəaliyyəti zamanı qarşıya çıxan çətinliklərin əsas cəhətlərini sürətlə aradan qaldırmağa yaxından köməklik göstərir. Onlayn mənbələr son dövrlərdə nəinki dünyanın əksər ölkələrində, o cümlədən respublikamızda texnoloji pedaqoji məzmun biliyini zənginləşdirməyə xidmət göstərən vasitələr kimi təbii ki, ana dilinin tədrisinin də keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərmiş, təhsildə ciddi dəyişikliklərin yaramasına səbəb olmuşdur. Modifikasiyanın ali məktəblərdə Azərbaycan dili təliminə tətbiqi gənc nəslin doğma dilinə yüksək məhəbbət ruhunda tərbiyəsində prioritet sahələrdən biri kimi qəbul olunmuş və istər tam orta, istərsə də ali məktəblərdə ana dilinin veriləcək biliklərinin dərinləşdirilməsinə yardım göstərir və tələbələrin praktik fəaliyyətlərində istifadə üçün ən səmərəli üsul kimi yüksək qiymətləndirilir (2, 63). Təhsil prosesinin müasirləşməsi dövrün təhsilinin məqsədlərində, məzmununda və paradiqmatik formalarında, biz sözlə texnologiyasında da dəyişikliklərin baş verməsini şərtləndirir. Təhsil və tərbiyənin yeni şəxsiyyətyönümlü paradiqması tələbəni onlayn mənbələrin, təhsil prosesinin mərkəzinə qoyur, onun ehtiyaclarını effektiv şəkildə ödəyir, başqa sözlə, maraqlarını, meyillərini və imkanlarını nəzərdə tutur. Təhsilin sosial-mədəni yönümlü olmasına, tələbələrin mədəniyyətlərin dialoquna cəlb olunmasına böyük köməklik göstərir. Modifikasiya üçün ənənəvi sual və tapşırıqlar tələbələrə təqdim edilərkən dil təliminə yeni yanaşmalar və pedaqogika elminin yeni nailiyyətləri nəzərə alınır və cəmiyyətdə baş verən innovativ dəyişikliklər sistemində yüksək keyfiyyətli ana dili və xarici dil hazırlığı sayəsində öz sosial vərdişlərini həyata keçirə biləcək səriştəli və rəqabət qabiliyyətli məzunların hazırlanması üçün ali təhsilin məzmununun yenilənməsi öncül yerlərdən birini tutur. "Belə şəraitdə tədqiq prosesində ənənəvi üsullarla yanaşı,

innovativ təlimin modifikasiya formalarından da istifadə etmək xüsusilə vacibdir, çünki o, tələbənin yaradıcılıq fəaliyyətini stimullaşdırır, onlara müstəqil düşünməyi öyrədir, çaşqınlığın aradan qaldırılmasına kömək edir, özünü təsdiq etməyi təşviq edir, təlim-tədris işinin keyfiyyətini yüksəldir" (3). Dil və mədəniyyətin mövzusu məna əlaqəsini müəyyənləşdirməyə çalışan tələbə təkcə dərsliklərlə kifayətlənmir və onlayn mənbələrə də müraciət etmək olur və aydınlaşır ki, psixolinqvistik insanın nitqi eşitməklə qavramaq qabiliyyəti eyni zamanda bütün nitqləri daxili nitqə çoxaldır. Dil vasitələri artikulyasiya və sosial-səsli nitqin intonasiyası əsasında yaranır. Araşdırmaçıların nəzərincə nitq eşitməsi iki komponentdən ibarətdir. 1)fonetik; 2)intonasiya. İlkin mərhələdə fonoloji eşitmə ən vacibdir və ən inkişaf etmiş formadır. Bu vəziyyətdə o, fonetik eşitmə qabiliyyəti deməkdir. İntonasiya altında insan ifadələrin intonasiya strukturlarını qavrayır və ən qabaqcıl artikulyasiya əlamətidir. Müxtəlif komponentlərin formalaşması və fəaliyyətin mərkəzində danışma və eşitmə ümumi psixoloji mexanizmlərdir. Metodoloji modifikasiya tanışlıq təlimi və nəzarəti artırır. Aydın məsələdir ki, həm yazılı, həm də şifahi nitq var: bir-birinə bağlı iki tərəfi dinləmək və danışmaq hər iki nitqə xas xüsusiyyətlərdən olanda şifahi nitq üçün daha səciyyəvidir. Üzərində reseptiv məşqlərin əsas vəzifəsi ilkin mərhələdə şifahi nitqin fonemlərinin standartlar sisteminin yaradılması deməkdir. Müxtəlif nitq eşitmə komponentlərinə fonetika, vurğu, intonasiya kompleksləri daxildir və bunları təlimin texnoloji bilik mənbəyi olan modifikasiyanı tətbiq etməklə dərindən öyrənmək olar.

Azərbaycan dilinin və o cümlədən xarici dillərin təlimində tələbələr çoxlu səhvlərə yol verirlər və bunları aradan qaldırmaq üçün tədrisdə modifikasiya üsulunun tətbiqi böyük önəm daşıyır. Belə ki, müəllim tədris prosesində tələbələri onlayn kitablar üzərində də çalışdırmalı, onlarda bu işə vərdiş aşılamalı, səhvləri texnoloji vasitələrin köməyi ilə aradan qaldırmağı tələb etməlidir. Heç kimə yad deyil ki, təkcə xarici dil öyrənmək istəyənlər, hətta ana dilini bilənlər də nitqdə, xarici dil öyrənmək istəyənlər isə istəyindən asılı olmayaraq həm şifahi, həm də yazılı nitqdə səhvlərə yol verirlər. "Azərbaycan dilinin və xarici dilin tədrisi metodikası nöqteyi-nəzərindən səhvlər müxtəlifdir, həm də onları müxtəlif üsullarla düzəltmək lazımdır. Bir çox müəllimlər hesab edir ki, nitqi daim korrektə edilən tələbələr daha kompleksli olur və səhv danışmaqdan qaça bilirlər ki, bu işdə onlara modifikasiya üsulunun tətbiqi də yaxından yardım göstərir" (4,45). Əgər tələbə səhv edirsə, bu o demək deyil ki, o dərslərə hazır deyildir və xarici dil öyrənə bilmir. Tədris prosesində səhvə yeni bir şey öyrənmək fürsəti kimi yanaşmaq lazımdır, çünki hər kəs doğma ana dilinin fonetik, leksik, qrammatik, semantik, sintaktik özəlliklərini, eyni zamanda xarici dildə danışmağı öyrənərkən xeyli səhvlərə yol verir ki, bunların texnoloji bilik mənbəyinin gücü ilə aradan qaldırmaq işi mümkünləşir. Müşahidələr göstərir ki, dərsdə modifikasiya təlim üsulunun tətbiqi bütün təhsil pilləsində tələbələrin tədris materialını mənimsəməsi üçün müəllimin öncədən dərsin təqdimatı hazırlığına sərf etdiyi vaxt onların dil ehtiyacı və maraqlarını təmin etmək üçün ən gözəl məqamdır. Belə ki, müəllim dərsə uyğun modifikasiya fəaliyyət növünü seçməklə, dərsi canlandıran, ona rəng qatan modifikativ öyrədici üsuldan səmərəli yararlanmalıdır, təlim prosesində tələbələrin yol verdikləri səhvləri aradan qaldırmaq üsullarındandır.

**Nəticə:** Modifikasiyanın tələblərinə müəllim və tələbələrin münasibəti zəminində nə qədər tez və yerli-yerində riayət olunarsa, dil bacarıqlarına yiyələnmək onlarda bir o qədər tez formalaşa bilər. Bizim üçün bütün bunları, məqalə boyu xülasə etmək də əhəmiyyət kəsb edən faktlar onunla səciyyələnir ki, dil təlimində işlənən və istifadə edilən üsul və yanaşmaların səmərəli tətbiqi həm müəllimə, həm də tələbəyə elə bir mühit yarada bilsin ki, onlar təlim-tədris fəaliyyəti zamanı rahat, sərbəst şəkildə texnoloji vasitələrlə təmasda ola bilsinlər.

**Ədəbiyyat**

1. Puentedura R. Learning, texnology and the SAMR model: Goals, processes and practice (Blog post).

2. Qənbərova F.A.Xarici dilin tədrisində informasiya kommunikasiya texnologiyaları və internetdən istifadə yolları. Filologiya məsələləri, Bakı, “Elm və təhsil”, №2, 2021, s.45-50
3. Azimov E.G., Shukin A.N. Dictionary of methodologial terms, 1999.
4. Qarayeva A. Xarici dildə danışıqda tipik səhvlər və onların aradan qaldırılması yolları. “Filologiya məsələləri”, №12, 2021, s.89-95.